ədalət.2017.7 iyun.S.4.



Mayis Səlim

## OXUMA, BÜLBÜLÜM

*Bu bahar oxuma, bülbül, sən Allah!*

B.Vahabzadə

Dağların başını duman alıbdır,
Daha qartalları zirvədə süzmür.
Bağçalar, çəmənlər yetim qalıbdır,
Ətirli gülləri gül əllər üzmür.
Əllərim yetmir o gülə, oxuma,
Oxuma, bülbülüm, belə oxuma!

Namusu, qeyrəti pula satanlar
Axırda Şuşanı satdılar, Allah!
Vətəni kürsüdən ucuz tutanlar
Sinəmdə bir ocaq çatdılar, Allah!
Alışıb dönmüşəm külə, oxuma,
Oxuma, bülbülüm, belə oxuma!

Yağılar at çapır Cıdır düzümdə,
Hanı qoç Koroğlum, hanı Qıratım?
Kədər var, qüssə var indi sözümdə,
Susubdur, oxunmur "Şur"um, "Heyratı"m.
Göz yaşım dönübdür selə, oxuma,
Oxuma, bülbülüm, belə oxuma!

Fəryadın yetişməz xarı bülbülə,
Sənə həsrət qalıb o dağ çiçəyi.
Pusquda dayanıb güdən var hələ,
Ahın əritmirsə bir daş ürəyi,
Səsini qaldırıb zilə oxuma,
Oxuma, bülbülüm, belə oxuma!

Hanı o gülşənlər, hanı o bağlar,
Belə nalə çəkib ağlama, zalım!
Sinəmə bu qədər çəkildi dağlar,
Sən də bir tərəfdən dağlama, zalım!
Dərdimi gətirib dilə, oxuma,
Oxuma, bülbülüm, belə oxuma!

## BİR OVUC TORPAQ

Dedilər, bir ovuc torpaq gətirib
Şuşadan qeyrətli bir qardaşımız.
Eşitdik, kövrəldi ürəklərimiz,
Yandıq, gözümüzdən axdı yaşımız.

Qurtardı düşmənin tapdağı altdan,
Şükür, heç olmasa, bir ovuc torpaq.
(Nə yaman günlərə qaldıq, İlahi,
Ay Allah, sevincə, təsəlliyə bax!)

Keçdi əldən-ələ tutiya kimi,
Öpüb gözlərinə təpdilər onu.
Şuşasız dözməyib öldü, - deyərək,
Bir qəbrin üstünə səpdilər onu.

Qıvrılıb yataqda xəstə bir qoca,
"Sənsiz verəmmirəm can, Şuşa", - dedi.
Hayqırıb inamla bir dəliqanlı,
"Yolunda tökərəm qan, Şuşa", - dedi.

Yarası göynədi neçə ürəyin,
Qəzəbdən gözlərdə şimşək oynadı.
Yumruqlar qılınctək qalxdı havaya,
Hər kəsin damarda qanı qaynadı.

Dad edir Şuşanın daşı, çınqılı,
Yetək harayına meşənin, dağın.
Gəlməsin ovucla qoy üstümüzə,
Biz gedək üstünə bütöv torpağın.

## Yaddan çıxarmı

Musa Ələkbərliyə

Günlər vardı büsatlı,
Bayramlı, tamaşalı.
Qədirli, muğamatlı,
O Ağdamlı, Şuşalı
Çağ heç yaddan çıxarmı?

Zirvəsində qartalı
Qıy vurub qanad salan,
Hər yamacı, hər yalı
Namərd əlində qalan
Dağ heç yaddan çıxarmı?

Köçüylə-külfətiylə
Diri-diri gömülən,
Torpaq, yurd həsrətiylə
Gündə neçə yol ölən
Sağ heç yaddan çıxarmı?

Bu zülümə, zillətə
Bizik yanıb tökülən.
Xocalıda millətə
Çalın-çarpaz çəkilən
Dağ heç yaddan çıxarmı?

Səngərdə olmalıdır
Qadınımız, kişimiz.
Xalq qisas almalıdır,
Haqq işidir işimiz -
Haqq heç yaddan çıxarmı?

Bülbülləri lal oldu,
Döndü xarabazara.
Gülü qönçədə soldu,
Bəxti, taleyi qara
Bağ heç yaddan çıxarmı?